


**Orxan Məmmədov**
Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri

# KOB-ların "yaşıl iqtisadiyyat"da rolunun artırılması məqsədilə yeni təşviq mexanizmlərinin yaradılması istiqamətində əlavə işlər görüləcəkdir

*- Orxan müəllim, istərdik müsahibəmizə bu ilin ən aktual mövzusu olan "yaşıl iqtisadiyyat" ilə başlayaq. Bu il Azərbaycan COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcək və 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. KOB-lar qarşısında "yaşıl iqtisadiyyat"a dair ən vacib məsələlər hazırda nələrdir?*

Azərbaycanda yaşıl və dayanıqlı inkişaf məsələləri hər zaman prioritet məsələlərdən olub. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi xüsusi istiqamət kimi müəyyən edilib və Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında müvafiq tədbirlərin icrası təsbit edilib. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və ölkəmizin COP29 kimi mötəbər tədbirə ev sahibliyi etməsi bu sahəyə diqqəti bir qədər də artırmış olacaq və yeni fürsətlər yaradacaqdır.

KOB-lar üçün müxtəlif aspektlər baxımından "yaşıl iqtisadiyyat"a transformasiya əhəmiyyətli və faydalıdır. Belə ki, səmərəli və qənaətli texnologiyaların tətbiqi, yaşıl innovasiyaların biznes proseslərinə inteqrasiyası KOB subyektlərinin xərclərinin optimallaşdırılmasına, məhsuldarlığının yüksəldilməsinə və rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərir.

İstehsal prosesinin ətraf mühitin mühafizəsi standartlarına uyğunlaşdırılması və yaşıl məhsulların istehsalı bizneslərin ixrac potensialının və maliyyə resurslarına çıxış imkanının artırılmasına xidmət edir. Beynəlxalq investorlar sərmayə ilə bağlı qərarlar qəbul edən zaman qeyri-maliyyə amilləri, yəni yaşıl məsələləri də özündə ehtiva edən Ekoloji, Sosial və Korporativ (ESG) idarəetmə prinsiplərinə üstünlük verirlər.

Azərbaycanda ESG prinsiplərinin daha geniş təşviqi, bu sahədə dövlət və özəl sektorun səylərinin birləşdirilməsi və konseptual baxışın formalaşdırılaraq həyata keçirilməsi məqsədilə 2022-ci ildə biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun "Ekoloji, sosial və korporativ idarəetmə standartları" üzrə altqrupu yaradılıb. KOBİA-nın rəhbərlik etdiyi bu altqrupda dövlət, özəl və ictimai sektoru təmsil edən 20-yə yaxın qurum və təşkilatın nümayəndələri təmsil olunur. ESG sahəsində sistemli fəaliyyətin təmin edilməsi məqsədilə ölkəmizdə

ortamüddətli dövr üçün Strateji Baxış formalaşdırılıb və yol Xəritəsi təsdiq edilib. Eyni zamanda, KOBİA təlim, məsləhət, qrant və s. kimi müxtəlif dəstək mexanizmləri çərçivəsində KOB-ların "yaşıl iqtisadiyyat"a keçidini təşviq etməyə çalışır. Bununla yanaşı, Nazirlər Kabinetinin 5 fevral 2024-cü il tarixli Qərarı ilə KOB subyektlərinə əlavə dəstək göstərilməsini nəzərdə tutan iqtisadiyyatın prioritet sahələrinin siyahısı təsdiq edilib. Qarşıdakı dövrdə sözügedən siyahıdan, eləcə də "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələrək KOB-ların "yaşıl iqtisadiyyat"da rolunun artırılması məqsədilə yeni təşviq mexanizmlərinin yaradılması istiqamətində əlavə işlər görüləcəkdir.

*- Hazırda ölkə biznesi üçün bir digər aktual mövzu işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşu və bölgədəki biznes imkanları ilə bağlıdır. KOBİA bu prosesə necə dəstək göstərir?*

44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərimizin sahibkarlıq fəaliyyəti və investisiya qoyuluşu üçün böyük potensialı var. Qələbəmizdən sonra, daha dəqiq desək 2020-ci ilin dekabr ayından bölgədə biznes qurmaq istəyən, iş və xidmətlərini təklif edən sahibkarlardan müraciətlərin qəbuluna başlanılıb. 2024-cü ilin 1 may tarixinə bu istiqamətdə KOBİA-ya 1950-dən çox müraciət daxil olub. Müraciətlərin 1450-dən çoxu yerli, 500-dən çoxu isə xarici müraciətlərdir. Ümumi müraciətlərin 980-dən çoxu investisiya layihəsidir ki, onun da 48%-i ticarət və xidmət, 22%-i sənaye, 22%-i kənd təsərrüfatı, 8%-i isə tikinti, turizm, səhiyyə, təhsil və mədəniyyət sahələrini əhatə edir. Yerigəlmişkən işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya qoyuluşuna dair Türkiyə şirkətlərindən 124 müraciət daxil olub və bu şirkətlər daha çox sənaye, ticarət və xidmət sektorlarına maraq göstərirlər. İnanırıq ki, özəl sektorun Qarabağda biznes qurmağa və investisiya qoyuluşuna göstərdiyi maraq bölgənin qısa müddətdə bərpasına və in- kişafına öz töhfəsini verəcəkdir.

İşğaldan azad edilmiş ərazilər də öz biznesini qurmaq istəyən sahibkarlar və xarici investorlar biznes layihələrini KOBİA-ya təqdim edə bilərlər. Agentliyə müraciət edən sahibkarlara işğaldan azad edilmiş ərazilərin iqtisadi və investisiya potensialına dair ətraflı məlumat, peşəkar məsləhət xidməti, müvafiq dövlət qurumları ilə əlaqələndirmə, yerli tərəfdaşların tapılması istiqamətində dəstək və xidmətlər göstərilir. Qarabağın iqtisadi və investisiya potensialının yerli və xarici iş adamlarına təqdim ounması məqsədilə KOBİA tərəfindən xarici nümayəndə heyətləri ilə keçirilən görüşlərdə və təşkil olunan birgə tədbirlərdə məlumat verilir.

Məlumat üçün onu da qeyd edim ki, Zəngilan rayonunun Ağalı kəndində yerləşən Dövlət Xidmətləri Mərkəzində KOBİA-nın kiçik və orta biznesə yönəlik xidmətləri həyata keçirən xidmət pəncərəsi fəaliyyət göstərir. İşğaldan azad edilmiş ərazilərdə KOB dostu ofisləri yerləşir. Bu, bölgədə biznesin qurulmasına və inkişafına dəstək məqsədilə KOBİA-nı sahibkarlara daha yaxın edir. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə öz biznesini quran bir sıra sahibkarlar Agentliyin müxtəlif dəstək və xidmətlərindən istifadə edirlər.





*- KOB-lara dəstək məqsədilə hazırda KOBİA tərəfindən hansı dəstək və xidmətlər göstərilir? Qarşıdakı dövrdə sahibkarlar üçün hansı yeni dəstək alətlərinin istifadəyə verilməsi nəzərdə tutulur?*

Bütün dünyada olduğu kimi Azərbaycanda da KOB-lar iqtisadiyyatın hərəkətverici qüvvəsi, dayanıqlı və davamlı inkişafın açarıdır. Ölkə sahibkarlarının 99%-dən çoxunu KOB subyektləri təşkil edir və onlar dövlətin geniş dəstək tədbirləri ilə əhatə olunublar. Bu isə iqtisadiyyatın müxtəlif sahələrində yeni KOB subyektlərinin yaranmasını və mövcud KOB-ların fəaliyyətinin genişlənməsini, mikro sahibkarların kiçik, kiçik sahibkarların orta və iri biznes subyektlərinə çevrilməsini stimullaşdırır.

KOBİA tərəfindən biznesə başlamaq və sahibkarlıq fəaliyyətini genişləndirmək istəyən biznes subyektlərinə müxtəlif dəstək və xidmətlər göstərilməkdədir. Bu dəstək və xidmətlər biznesin müxtəlif mərhələlərini əhatə edir. Biznes planlaşdırmadan başlayır. Bu istiqamət üzrə Agentlik sahibkarlara biznes fəaliyyəti ilə bağlı informasiya, təlim, məsləhət xidməti göstərir, biznes planın hazırlanmasına kömək edir. Təkcə 2023-cü ildə sahibkarların maarifləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə KOBİA-nın ödənişsiz təlim və məsləhət xidmətlərindən 14 minə yaxın KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb. Kənd təsərrüfatı, istehsal, xidmət və s. üzrə 700-ə yaxın biznes planın hazırlanmasında KOB subyektlərinə dəstək göstərilib. Agentliyin ödənişsiz video təlimlərindən 420-dən çox sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb. 40-a yaxın sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnmək üçün Almaniyada ixtisasartırma kursu keçib.
Biznesə başlamaq mərhələsində sahibkarlar dövlət və özəl qurumların vahid məkanda xidmətlərinin toplandığı KOB evlərinə müraciət edə bilərlər. KOB evlərində biznesin qeydiyyatından başlayaraq inkişaf etdirilməsinə qədər bütün istiqamətlər üzrə biznes xidmətləri göstərilir. Hazırda Bakı, Yevlax və Xaçmaz şəhərlərində olmaqla 3 KOB evi fəaliyyət göstərir. KOB evlərində 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlara 300-dən çox adda xidmət təqdim olunur. KOB evlərinin ölkənin digər iri şəhər və rayonlarında da yaradılması istiqamətində işlər davam etdirilir.

Biznesi işlət və biznesi inkişaf etdir mərhələləri üzrə sahibkarlar həmçinin Agentliyin daxili bazar araşdırması, təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üzrə qrant proqramı, vergi güzəştlərini əhatə edən "Startap" şəhadətnaməsi, yerli və beynəlxalq sərgilərdə iştirak, ticarət şəbəkələrinə çıxış, sahibkar maraqlarının müdafiəsi və s. kimi dəstək alətlərindən yararlana bilərlər. KOB-ların təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə dəstək məqsədilə indiyədək 58 la- yihəyə 1 mln. manatdan çox qrant vəsaiti ayrılıb. Mikro və kiçik sahibkarlara innovasiya fəaliyyəti üzrə əldə etdikləri gəlirlərə 3 il müddətinə vergi güzəştlərini nəzərdə tutan 150-dən çox "Startap" şəhadətnaməsi verilib. Təkcə 2023-cü ildə 10 sərgi çərçivəsində

80-ə yaxın KOB subyektinin məhsullarının ödənişsiz olaraq sərgilənməsinə, Agentlik tərəfindən ticarət şəbəkələrində yaradılmış 10-a yaxın satış nöqtəsində 25-dən çox sahibkarlıq subyektinin məhsullarının satışına dəstək göstərilib.
Agentliyin KOB-lara yerində dəstək və xidmətləri təmin edən, dövlət-sahibkar əməkdaşlığına öz töhfəsini verən KOB dostu şəbəkəsinin genişlənməsi davam etdirilir. Sahibkarlara daha yaxın olmaq, onların müraciətlərinin yerində həllinə dəstək üçün hazırda ölkənin 50-yə yaxın şəhər və rayonunda KOB dostları fəaliyyət göstərir.

Hədəflərimizə gəlincə, KOBİA-nın başlıca hədəfi KOB-ların ÜDM-də, məşğulluqda və qeyri-neft ixracında payının artırılması, rəqabətqabiliyyətinin yüksəldilməsidir ki, cari ildə də Agentliyin fəaliyyəti, dəstək və xidmətləri bu hədəflərin reallaşdırılmasına yönəldiləcəkdir.

*- 2024-cü ildə KOBİA tərəfindən KOB-lara dəstək məqsədilə daha bir dəstək mexanizmi - KOB Model Müəssisə istifadəyə verilib. TÜİB-in sıralarında da xeyli sayda sənayeçinin birləşdiyini nəzərə alaraq model müəssisənin sahibkarlar üçün faydası barədə məlumat verməyinizi xahiş edirik.*

Model müəssisə kiçik və orta sənaye müəssisələrinin səmərəli və rəqabətqabiliyyətli olmasına imkan verəcək qənaətli idarəetmə üsullarına əsaslanan tədris və təcrübə mərkəzidir. Model müəssisənin imkanlarından faydalanan KOB subyektlərinin mühəndisləri və texniki heyəti qənaət üsullarını təcrübə əsnasında öyrənir və bu metodları öz şirkətlərində tətbiq edirlər. Bu isə həm işçilərin, həm də şirkətin məhsuldarlığını və rəqabətqabiliyyətliliyini artırır.
Bu ilin mart ayında Azərbaycan Texniki Universitetində fəaliyyətə başlamış KOB Model Müəssisə də eyni məqsədlə yaradılıb. KOBİA tərəfindən beynəlxalq təcrübə araşdırılmaqla yaradılmış KOB Model Müəssisədə ilkin planlaşdırmadan başlayaraq müəssisənin qurulmasına qədər real biznes prosesini əyani müşahidə etmək mümkündür. “Görmə, eşitmə və icra etmə” konsepsiyası əsasında fəaliyyət göstərən model müəssisə zəruri avadanlıqlarla təchiz olunub ki, bu da nəzəri biliklərin təcrübədə sınaqdan keçirilməsinə, müasir texnoloji avadanlıqların fəaliyyətini əyani görməyə, istehsal prosesində resursa, vaxta və xərclərə qənaət üsullarını öyrənməyə imkan verir.

Model müəssisənin biznesin səmərəliliyini və rəqabətqabiliyyətini artırmaq üçün formalaşdırılmış digər mərkəzlərdən əsas fərqi onların tədbiqi təcrübə əsasında öyrənmə üsullarından istifadə etməsidir. Burada nəzəriyyə və praktiki tədris proqramının birləşdirilməsi nəticəsində bilik və səriştə qazanılmasının qalıcı olması hədəflənir. Model müəssisədə tədris olunan nəzəri və praktiki təlimlər şirkət nümayəndələrinə öyrəndiklərini real iş mühitində tətbiq etmək imkanı verir.

Fəaliyyətə başladığı gündən indiyədək sənaye sahəsində fəaliyyət göstərən 20-dən çox sahibkar və ya onların əməkdaşları model müəssisənin imkanlarından faydalanıb. KOB Model Müəssisənin



imkanlarından yararlanmaq istəyən sahibkarlar KOBİA-ya müraciət edə bilərlər. Model müəssisə sahibkarlara dəstək məqsədilə yaradıldığı üçün biznes subyektlərindən heç bir ödəniş tələb olunmur.

*- Orxan müəllim, Azərbaycan və Türkiyə arasında iqtisadi-ticarət əməkdaşlığının hazırkı vəziyyəti hər iki ölkənin KOB-ları arasında əlaqələrin inkişafını necə stimullaşdırır?*

Bu gün Azərbaycan-Türkiyə əlaqələri ən yüksək səviyyədədir və əməkdaşlığımız bütün istiqamətlərdə uğurla inkişaf edir. Türkiyə bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də Azərbaycanın ən vacib tərəfdaşlarından biridir. İki ölkə arasında iqtisadi əlaqələr müxtəlif sektorları əhatə etməklə, çoxşaxəliliyi və intensivliyi özündə ehtiva edir. Qlobal iqtisadiyyatda baş verən müəyyən xoşagəlməz proseslərə baxmayaraq, hazırda qardaş dövlətlər arasında bütün sahələrdə olduğu kimi, ticari-iqtisadi əlaqələrdə də dinamik inkişaf müşahidə edilir. Azərbaycanla ticarət dövriyyəsində əsas ölkələrin sırasında Türkiyə ilk yerlərdən birindədir. Türkiyə şirkətlərinin Azərbaycanda əsas fəaliyyət sahələri inşaat, informasiya-rabitə, maliyyə və sığorta, qida istehsalı, nəqliyyat, tekstil sektorlarıdır. Azərbaycan Türkiyə ilə preferensial ticarət sazişi imzalayıb. Bütün bu imkanlar fonunda iki ölkə şirkətlərinin əməkdaşlığının təşviqi, birgə istehsal müəssisələrinin təşkili, nəqliyyat-logistik, həmçinin əlverişli coğrafi mövqe üstünlüklərindən səmərəli istifadə ölkələrimizin ticarət, investisiya kimi sahələri başda olmaqla, çoxşaxəli əlaqələrimizə töhfə verəcək. Həm Azərbaycanda, həm də Türkiyədə biznes subyektlərinin 99%-nin KOB subyektlər olması bu əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğunu göstərir.

Məqsədimiz bu potensialı maksimum dərəcədə reallaşdırmaq, mövcud imkanları praktik layihələrə çevirmək və KOB-lar arasında daha dərin inteqrasiyaya nail olmaqdır. Bu məqsədlə Türkiyədən olan həmkar dövlət təşkilatları, biznes assosiasiyaları, sahibkarlar və investorlar ilə sıx əməkdaşlıq edirik. 2018-ci ildə Türkiyənin Kiçik və Orta Müəssisələrin İnkişafı və Dəstəklənməsi Təşkilatı (KOSGEB) ilə Anlaşma Memorandumu imzalayaraq əməkdaşlığımıza yol açdıq. Növbəti illərdə isə əməkdaşlığımızın əhatə dairəsi daha da genişləndi. Hazırki dövrə qədər KOBİA ilə Türkiyənin müvafiq qurumları arasında 15-ə yaxın sənəd imzalanıb. KOSGEB ilə yanaşı, Türkiyənin Prezidenti yanında İnvestisiya Ofisi, Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumu (DEİK), Türkiyə Katılım Bankları Birliyi, eləcə də ölkəmizdə fəaliyyət göstərən türk iş adamları birlikləri ilə əməkdaşlıq edirik. Yerigəlmişkən KOBİA TÜİB-lə də əməkdaşlıq edir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində uğurla fəaliyyət göstərən suvenir istehsalı müəssisəsinin yaradılması birgə əməkdaşlığımızın uğurlu nəticələrindəndir.

Eyni zamanda Türkiyə KOB sektorunun dəstəklənməsi sahəsində zəngin təcrübəyə malikdir və biz də aidiyyəti qurumlar ilə birlikdə bu təcrübənin öyrənilməsi və Azərbaycanda tətbiqi üzrə işlər görürük.

Son dövrlər məmnunluqla müşahidə etdiyimiz pozitiv tendensiyalardan biri regional səviyyəli işgüzar münasibətlərin inkişafıdır. Azərbaycana Ankara, Trabzon, Ünye, İzmir və Türkiyənin digər bölgələrini təmsil edən ticarət palatalarının səfərləri təşkil olunub. Onların Azərbaycan iş adamları ilə B2B görüşlərinin keçirilməsi yeni əlaqələrin qurulması baxımından faydalıdır.

Qarabağın bərpası və yenidən qurulması işgüzar əlaqələrimizdə mühüm yer tutur. Türkiyə şirkətləri Qarabağda həyata keçirilən tikinti işlərində yaxından iştirak edir, eyni zamanda bölgəyə investisiya qoyuluşu və biznes qurmağa maraq göstərir. KOBİA olaraq biz də bu istiqamətdə Türkiyə iş adamlarına mandatımız çərçivəsində lazımi dəstəyi göstəririk.

